# 20 Yanvar–azadlığın əbədi zirvəsi

## "Qanlı yanvar" adlı tədbir keçirilmişdir

Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin 30 illiyinə həsr olunmuş "Qanlı yanvar" adlı tədbir keçirilmişdir. Tədbir şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlamışdır.

Mərkəzin əməkdaşı Aygün Məmmədova çıxış edərək iştirakçılara faciə haqqında məlumat vermişdir.

Bildirilmişdir ki, 1990-cı il yanvarın 19-dan 20 -nə keçən gecə keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən Bakı şəhərinə yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür.

Qeyd olunmuşdur ki, bu qanlı qırğının nəticəsində Bakıda və Azərbaycanın rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi müdaxilə nəticəsində 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, xeyli dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycan Respublikasının Moskvadakı nümayəndəliyinə gələrək KİV qarşısında bu qanlı cinayəti törədənlərin əməllərini ifşa edən bəyanat vermişdir.

Qanlı 20 yanvar faciəsinə siyasi-hüquqi qiymət də ümummilli liderin təşəbbüsü ilə verilmişdir.

**Sədaqət KAZIMOVA,**
**mərkəzin əməkdaşı.**

## 20 Yanvar şəhidlərinə həsr olunmuş tədbir



FHN-nin Şimal-qərb Regional Mərkəzində 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə əvvəlcə xalqımızın azadlığı və Vətənimizin müdafiəsi uğrunda şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən natiqlər 1990-cı il yanvar ayının 19-dan 20-ə keçən gecə Sovet ordusunun dinc Azərbaycan xalqına qarşı törətdiyi qətllərin insanlığa qarşı ağır cinayət olduğunu, milli azadlıq və öz ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış xalqa görünməmiş divan tutduğunu qeyd edərək bildiriblər ki, bu hadisələrə ən böyük siyasi qiyməti ümummilli lider Heydər Əliyev elə hadisədən bir gün keçməmiş verib.

Daha sonra Vətənin azadlığı, suverenliyi uğrunda qəhrəmanlıq göstərərək canlarından keçmiş Azərbaycanın oğul və qızlarının şücaətindən danışılıb.

**FHN Şimal-qərb Regional Mərkəzinin Maarifləndirmə sektoru.**

## 20 yanvar faciəsinin otuzuncu ildönümünə həsr edilmiş müsabiqə



Qəbələ Rayon Gənclər və İdman İdarəsi və təhsil şöbəsi 20 yanvar faciəsinin otuzuncu ildönümünə həsr edilmiş "Şəhidlər unudulmur" mövzusunda şeir müsabiqəsi keçirmişlər.

Müsabiqənin açılış mərasimində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və təhsil şöbəsinin müdiri Arifə Bayramova tədbirdə çıxış etmişlər. 20 Yanvar faciəsinin baş vermə səbəbləri və nəticələri barədə danışan natiqlər bu faciəni doğuran o vaxtkı ictimai-siyasi vəziyyıt haqqında tədbir iştirakçılarına məlumat vermişlər.

Müsabiqədə rayonun müxtəlif məktəblərindən olan 20-dən artıq şagird iştirak etmişdir. Onlar torpaqlarımız uğrunda canlarından keçmiş şəhidlərimizə, milli qəhrəmanlarımıza və vətənpərvərlik mövzusuna həsr olunmuş şeirlər oxumuşlar.

Müsabiqənin nəticəsinə əsasən Kübra Maqsudova I yerə, Zəhra Məmmədova və Fərid Möhübov II yerə, Nəzrin Musayeva, Selcan Rəşidova və Nəzrin Məmmədova III yerə layiq görülmüşlər.

Qaliblər gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Səhrab Umuyev (foto).**

## 20 Yanvar Ümumxalq Hüzn Gününün 30-cu ildönümü qeyd edilib

Qəbələ Mədəniyyət Mərkəzində 20 Yanvar Ümumxalq Hüzn Gününün 30-cu ildönümü ilə əlaqədar dəyirmi masa təşkil olunub.

Tədbirdə çıxış edənlər 20 Yanvar faciəsinin müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi olduğunu vurğulamışlar.



Tədbirin sonunda 20 Yanvar hadisələrini əks etdirən videoçarx nümaiş etdirilmişdir.

Tədbiri mərkəzinin təşkilatçı metodisti Natəvan Mürşüdova açıb və 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra qanlı yanvar hadisələrinə dair mühazirə oxunub.

**Azər AZAYEV,**
**mərkəzin əməkdaşı.**

## Azadlığa gedən yol

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr edilmiş tədbir keçirilmişdir.



Tədbirdə çıxış edən mərkəzin direktoru, iqtisad elmləri namizədi Namik Muradov qeyd etmişdir ki, 20 Yanvar hadisəsi xalqımızın milli azadlıq tarixinə həkk olunmuş ən qanlı faciələrdəndir. Keçmiş Sovet imperiyası ordusunun qarşısına silahsız, əliyalın çıxaraq canlarından keçən 20 Yanvar şəhidləri müasir tariximizin qəhrəmanlıq simvoluna çevrilmişlər. Qeyd edilmişdir ki, tarixdə bənzəri olmayan bu cür qəddarlıq və vəhşilik XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş, əliyalın, dinc, mülki əhali kütləvi qətliama məruz qalmışdır.

Bildirilmişdir ki, ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmadan Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu qanlı cinayəti qətiyyətlə ittiham edən bəyanat vermişdir.

Xalqımıza qarşı törədilmiş 20 Yanvar hadisələrinə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə siyasi qiymət verildiyi və bu qətliam haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldüyü diqqətə çatdırılmışdır.

Namik Muradov vurğulamışdır ki, 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilməmişdir. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazmış, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açmışlar.

Daha sonra 20 yanvar hadisələrinə həsr olunmuş "Azadlıqla bitən SOS" və "Əbədi zirvə" sənədli filmləri nümayiş etdirilmiş və tədbir iştirakçıları tərəfindən müzakirə olunmuşdur.

**"Qəbələ"**
**Səfa ASLANOV (foto).**

## Azadlıq mübarizəsinin qanlı və şanlı günü

Rayon ağsaqqallar şurasında 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev açmışdır.

O, bildirmişdir ki, 20 Yanvar faciəsinin baş verdiyi tarix bizim nəslin yaxşı yadındadır. Xalqımız öz azadlığı, ərazisinin bütövlüyü uğrunda mübarizəyə qalxmışdı. Ancaq imperiya rəhbərləri xalqın birliyini əzmkarlığını görüb qorxuya düşmüşdü. Azərbaycanın əzəli torpağı Dağlıq Qarabağı ələ keçirməyə çalışan ermənilərə havadarlıq edən Sovet rəhbərliyi xalqımızın haqq səsini boğmaq üçün Azərbaycana- dinc, silahsız əhali üzərinə ən müasir atıcı silahlarla, tank və zirehli texnika ilə silahlanmış, xüsusi təlim görmüş hərbi hissələr göndərdi. 20 Yanvarda 150-yə yaxın Vətən oğul və qızı həlak olsa da xalqımızın azadlıq mübarizəsi daha da alovlandı və xalqımız öz suverenliyinə qovuşdu.

Çıxış edənlər 1988-1990-cı illərdə tariximizdə baş verən və şahidi olduqları hadisələr barədə xatirələrini dilə gətirdilər.

**"Qəbələ"**

## "Şəhidlər ölmürlər" adlı kompozisiya nümayiş etdirilib

20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Qəbələ şəhər 3 nömrəli tam orta məktəbdə "Şəhidlər ölmürlər" adlı tədbir keçirilmişdir.

Tədbiri məktəbin direktoru Ədilə Əliyeva açmışdır. Vətənimizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş, şəhidlik zirvəsinə yüksəlmiş vətən oğul və qızlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tarix müəllimi Məleykə Rəsulova 20 Yanvar faciəsinin səbəbləri və nəticəsi barədə məlumat vermişdir. O bildirmişdir ki, imperiya cəlladları 20 yanvarda xalqımızın mübarizə əzmini qırmağa cəhd etsələr də buna nail ola bilmədilər. Əksinə bu faciə xalqımızın tarixinə yeni bir qəhrəmanlıq səhifəsi əlavə etdi.

Sonra müəllimlərdən Məleykə Rəsulovanın, Vəfa Alxasovanın və Sevda Əliyarovanın hazırladıqları ssenari əsasında 6-cı, 7-ci, 8-ci sinif şagirdləri "Şəhidlər ölmürlər" adlı kompozisiya nümayiş etdiriblər. Kompozisiyada xalqımızın üzü Babəkdən bəri Mübariz İbrahimova qədər qəhrəmanlıq tarixinin fraqmentləri işıqlandırılıb.

**Zəhra ALXASLI,**
**məktəbin VIII sinif şagirdi.**